***Bu il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda ilk dəfə "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalı keçirilib. Bu, müstəqil Azərbaycanın və qardaş Türkiyənin çağdaş tarixində olduqca mühüm əhəmiyyət kəsb edən tarixi bir hadisədir. Festivalın açılışında qeyd olunduğu kimi, "TEKNOFEST" müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları cəmiyyətlə birlikdə inkişaf etdirəcək.***

# "TEKNOFEST" qardaşlığımızın növbəti parlaq ifadəsidir



Azərbaycan və Türkiyə bu yola böyük amallarla çıxıblar. "TEKNOFEST" artıq düşüncələrdə özünə möhkəm yer alıb. İndi əsas vəzifə xalqlarımızın və dövlətlərimizin tərəqqi və intibahını sürətləndirmək üçün dayanmadan çalışmaqdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev tədbirdəki parlaq çıxışında demişdir: "Bu gün "TEKNOFEST" bizim birliyimizin növbəti nümayişidir, onun təzahürüdür. "TEKNOFEST" elm, inkişaf, bilik, texnologiya bayramıdır. Əminəm ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışında tədbirin əhəmiyyətini yüksək qiymətləndirib: "Bu gün "TEKNOFEST"i ölkə xaricində ilk dəfə Can Azərbaycanda təşkil etməyin həyəcanını və haqlı qürurunu sizinlə bölüşürük. Bura Azərbaycan gəncliyinin bacarığını, istedadını nümayiş və inkişaf etdirməsi üçün önəmli bir platformadır".

Bəli, bu festival Azərbaycan – Türkiyə dostluğunun, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin parlaq nümunəsidir. Bu həm də siyasət yürütməsi, öz sözünün, qərarının sahibi olması, qardaşlıq münasibətləri, inkişaf və əməkdaşlıq üçün başlıca amildir.

Bu gün hər iki ölkənin iqtisadi, siyasi, sosial sahədə həyata keçirdikləri tədbirlər dünyanın gündəmindədir və bu ordu quruculuğunda özünü daha aydın şəkildə göstərir. Azərbaycanın 44 günlük müharibədə qazandığı tarixi qələbə, Türkiyə hərbi sənayesinin nailiyyətləri, xüsusilə "Bayraqdar"ların böyük şöhrəti hər birimizdə qürur doğurur.

Fikrimcə, bu festival Azərbaycan və Türkiyənin iqtisadi, hərb və mədəniyyət sahələri ilə yanaşı, elm və texnika sahələrində də birliyini əks etdirir və belə tədbirlərin keçirilməsi



pozulmaz və əbədi əlaqələrimizin yeni, daha yüksək mərhələyə qədəm qoymasından, hər iki dövlətin ildən-ilə artan nüfuzundan, elmi texniki potensialından, hərbi qüdrətindən xəbər verir.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın yürütdüyü siyasət qardaş ölkələrimizin inkişafı ilə bərabər, dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasına xidmət edir. Ötən əsrin 90-cı illərindən fərqli olaraq, indi Türkiyə və Azərbaycan dünyada söz sahibidir. Hər iki dövlətin müstəqil dünya ölkələri üçün də faydalıdır. Çünki belə festivallar elmi, təfəkkürü, yaradıcılığı birləşdirir və bəşəri dəyərlərə – münasibətlərin yaxşılaşdırılmasına, əməkdaşlığın möhkəmləndirilməsinə dəstəkdir. Sonda bir daha vurğulamaq istəyirəm ki, yüksək innovasiyaların tətbiqi bəşəriyyətin gələcəyi, inkişafı üçün önəmlidir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***